**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№352/4** **29 dekabr 2022-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən rəqəmsallaşma sahəsində görülmüş işlər barədə**

Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 2.2-ci "Auditorun şəxsi kabineti sisteminin təkmilləşdirilməsi və kiberthəlükəsizliyə nəzarətin həyata keçirilməsi", 2.3-cü "Auditorun şəxsi kabineti sisteminin fasiləsiz fəaliyyətinin təmin edilməsi", 2.4-cü "Auditor xidmətlərində rəqəmsallaşma sahəsində mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və təşviqi", 2.6-cı "Audit sistemində innovasiyaların və yüksək texnologiyaların tətbiqinə dair təkliflərin hazırlanması" və 2.7-ci "Rəqəmsal iqtisadiyyat şəraitində auditin aparılmasına dair metodik vəsaitin hazırlanması" bəndlərinin icrasına dair Palatanın Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov) tərəfindən hazırlanmış "Auditorlar Palatası tərəfindən rəqəmsallaşma sahəsində görülmüş işlər barədə" hesabatın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi tərəfindən hazırlanmış "Auditorlar Palatası tərəfindən rəqəmsallaşma sahəsində görülmüş işlər barədə" hesabat bəyənilsin (əlavə olunur) və həmin idarənin rəisi Q.Əhmədova il ərzində gördüyü işlərə görə təşəkkür elan edilsin.

2. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, "Auditorun şəxsi kabineti" və yeni yaradılmış "Auditorun sertifikatlaşdırması və icazələrin verilməsi" sistemlərinin fəaliyyətinin təşkili, kibertəhlükəsizliyinin qorunması və təkmilləşdirilməsi istiqamətində işlərin görülməsi davam etdirilsin.

3. Bu qərarın və hazırlanmış hesabatın mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**